

*Mirhafiz BAHADIR*

## ŞEYTANAĞACI

***Lənkəran şəhərinin mərkəzində yaşı 250-300-ə çatan Şeytanağaclarından ibarət əzəmətli bir park var idi. İndisə...***

İkrah doğursa da ürəkdə adın,
Görmədim bir kimsə dolansın gendən.
Buluda dəyirdi qolun, qanadın,
Hamı razı idi kölgəliyindən.

Yaşadın illərin bəyaz qışını,
Tufan da sinəni çapa bilmədi.
Babamdan soruşdum bir vaxt yaşını,
Daldı xəyallara, tapa bilmədi.

Kölgəndə cücərib bitib dincliyim,
Səma halal edib sənə suyunu.
Dəcəl uşaqlığım, coşqun gəncliyim,
Bir də qocalığım görüb boyunu.

Böhtana tuş gəldin, Şeytanağacı,
Guya "kafir" əkib nəvaxtsa səni.
Qoy deyim, həqiqət olsa da acı,
Qazancçın qırdılar əzəmətini...

Daha çırağı yox kor gümanımın,
Bəhanə özü də qara yalandır.
Yaşıl tarixiydin Lənkəranımın,
Tarixin hansısa ocaqda yandı.

Ötdü əcəl yeli başının üstdən,
Taley mi, qismətmi verdi hökmünü?



Şeytanın xəbəri olmadı səndən,
Şeytan ürəklilər kəsdi kökünü.

## GÖYƏRÇİN

Bir vaxt rabitəçi olub ellərə,
Düşüb tufanlardan-tufana gəlib.
Onun ayağına bağlanan kağız
Bir dünya sevinctək ünvana gəlib.

Onun gətirdiyi bir barmaq kağız
Nicat yolu olub dara düşənin.
Bəzən bir ordunu xilas eyləyib
Bir barmaq kağızla bəyaz göyərçin.

Bəzən şahini də azdırıb, vallah,
Hansı koğuşasa təpilib qalıb.
Ovunu gözündən itirən şahin
Özünü daş kimi qayaya çalıb.

Həvəsi gələndə çəkilər göyə,
Nə dəni, nə suyu vecinə almaz.
Mayallaq aşmaqda heç bir akrobat
Onunla yarışda qələbə çalmaz.

Elə mehribandır qara gözləri,
Sevinclər paylayır hər bir anıma.
Elə ki, başına sığal çəkirəm,
Əsəbim qılınctək girir qınına.

## HƏZİN BİR SƏDA

Köçə başlayıblar yenə durnalar,
Səmanı bürüyüb həzin bir səda.
Elə ənginlikdə uçur ki onlar,
Ovçu gülləri qalamaz oda.

Səma qulaq asır köç nəğməsinə,
Bu nəğmə sübh çağı çatacaq sona.
Bahar aparırlar bu quşlar yenə
Hansı ölkəninsə torpaqlarına.

Yeri də, göyü də edib pərişan,
-Hələlik! - söyləyir qaqqıltıları.
Ata ocağından köçə başlayan
Qızlartək kövrəlib durna qatarı.

## GÜLLƏR DƏ HƏYA GÖZLƏYİR

Gecələr gül-çiçək yatırlar, - demə,
Qönçələr gecələr açırlar çiçək.

Gözünü qönçənin üzünə dikmə.
Naməhrəm doğuşa baxmasın gərək.

Güllər də gözləyir abır-həyanı,
Rəng-rəng ləçəkləri doğur gecələr.
İlahi hikmətdir gülün bu anı,
Hikmətdir ətirə bələnən səhər.

De, necə öpməyim belə torpağı?
"Bir loğman nəfəsli havası vardır".
Heyrətə düşməyib neyləyim axı?
Gülün-çiçəyin də həyası vardır.

## DİŞİ AT - XANIM ARVAD

Dişi ata minməzdi babam,
Dözərdi hər nazına, dinməzdi babam.
Havada nəm duyan kimi,
Çullayardı onu.
Tövlədə saxlayardı onu.
Qoşmazdı yük arabasına,
Əziyyət verməzdi ona.
Otlağa aparanda da
Göz qoyardı -
İt-qurd qapmasın onu.
Dəcəl uşaqlar minib,
Çapmasın onu.
Deyərdi babam: - Xanım arvaddır dişi at,
Onun öz işi var: -
Bala böyütsün,
Nəsil artırsın,
Boya-başa çatdırsın.
Kişi işi görə bilməz,
Kişi yerişi yeriyə bilməz.
Dediyindən dönməzdi babam,
Dişi ata minməzdi babam,
Yalmanına yatmazdı,
Dişi atı çapmazdı.

## SƏNƏDLİ FİLM

Titrədə oxudun: - Sənədli film,
Görürəm gözündən axır gileylər.
Sənədli lentlərdə tarixim durur,
Manqurda dönərsən baxmasan əgər.

Qələbə çalmışıq harda, nə zaman,
Hopubdur lentlərə əzəmətiylə.
Kosmik fəzalarda imzamız da var,
Ölkəmiz tanınır öz qüdrətiylə.



Xətalar, qəzalar harda baş verib,
Əzilən kim olub, əzən kim olub?..
Adi yarpaq belə düşüb lentlərə,
Faktlar çözələnib, baş hakim olub.

Xocalı nə zaman düşüb odlara?
Yüz kitab izahı bəlkə əbəsdir.
O qanlı günlərə şahidlik üçün
Sənədli ekranın bir kadrı bəsdir.

Olsun ki, kim isə azır yolunu,
Yalançı böhtanı ruhuma yaddır.
Günəştək nur saçan həqiqət ki var,
Əmin ol, lentlərin yaddaşındadır.

Fikir verməmişəm cox şeyə bəzən,
İnad eyləmişəm, tərsliyim olub.
Məktəb şagirdiyəm bu günlər sanki,
Sənədli filmlər dərsliyim olub...

## HƏR NƏDİRSƏ...

Leyli saçlarına çəkirdi daraq,
Darağın ağzından yellər tel aldı.
Kim bilir nə qədər yol getdi bu tel.
Axırda ilişib budaqda qaldı -
Budağın bu telə ehtiyacı yox.

Bir az da gücləndi yelin nəfəsi,
Bir az da apardı teli uzağa.
Coxaldı qəzəbi, artdı hikkəsi,
Teli qamçı kimi çəkdi bir dağa -
Budağın bu telə ehtiyacı yox.

Küləyin əlində oyuncaq idi,
Gah sola yelləndi, gah da ki sağa.
Küləyin əlindən üzülən kimi
Qara bir sap kimi düşdü bulağa -
Bulağın bu telə ehtiyacı yox.

Döndü bir səyyaha yel qanadında,
Dünyanı dolandı belədən-belə.
Nə bulaq, nə budaq yol gözləmirdi,
Məcnun həsrət idi bu qara telə.

O şey ki keçməyir fikrindən sənin,
Çıxır qabağına lap qoşa-qoşa.
Qısmətmi, talemi, bəxtmi, nədirsə,
Arzu etdiklərin dönürlər daşa...

***Lənkəran***